Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi

# NƏ ETMƏLİYİK Kİ, BİZNES VƏ MƏDƏNİYYƏT MÜXTƏLİF QÜTBLƏRDƏ YERLƏŞMƏSİNLƏR

**KAMRAN İMANOV**

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri

Bakı, 23 fevral 2022-ci il

# ƏQLİ MÜLKİYYƏT VƏ KREATİVLİK ANLAYIŞI SIX TƏMASDADIR

«Kreativlik» (latınca «creatio», fransızca «creation», ingiliscə «creativity», rusca «креативность») – yaradıcılıq, quruculuq, yeniçilik, fəaliyyət (Ensiklopedik lüğət); şəxsin prinsipial cəhətdən yeni ideyalar formalaşdırması, yaradıcı imkanları (Psixoloji lüğət); «kreativ» - yaradıcı, orijinal, qeyri-adi, yeni, təkrarolunmaz, unikal deməkdir.

# ƏQLİ MÜLKİYYƏT AGENTLİYİNİN NİZAMNAMƏSİNDƏN

3.1. Dövlət başçısının təsdiq etdiyi Agentliyin Nizamnaməsində (2.2.8-ci bənd) qeyd edilir ki, "əqli mülkiyyətin müasir iqtisadiyyatda rolunun artırılması və müəlliflik hüququna əsaslanan iqtisadiyyatda (kreativ iqtisadiyyatda) investisiya mühitinin yaxşılaşdırılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və kreativ iqtisadiyyatın ölkənin ümumi daxili məhsulundakı payının müəyyən edilməsi, həmçinin texnologiyaların transferinin, innovasiyalara dəstək və kommersiyalaşdırılma infrastrukturunun yaradılması ilə bağlı **tədbirlər görmək**".

Həmin tədbirlər çərçivəsində (3.1.44-cü bənd) göstərilir ki, "əqli fəaliyyət nəticələrinə sərmayə yatıran investorlar üçün təlimlər, treninqlər, dəyirmi masalar təşkil etmək, onlara əqli mülkiyyət hüquqların təminatı ilə bağlı hüquqi məsləhətlər vermək".

3.2.43-cü bəndində göstərilir ki, "əqli mülkiyyət hüquqlarına əsaslanan milli iqtisadiyyat sahələrinin iqtisadi göstəricilərinin daimi müşahidəsini aparmaq, onların inkişafı zamanı meydana çıxan problemləri müəyyən etmək, milli brendlərin yaradılmasının təşviqi ilə bağlı işlər görmək, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, ümumi daxili məhsulda əqli mülkiyyətə əsaslanan sənayenin payını daha dəqiq dəyərləndirmək üçün müvafiq işlər görmək, əqli fəaliyyət nəticələri ilə bağlı beynəlxalq reytinqlərdə ölkəmizin reytinqinin müşahidəsini həyata keçirmək, təhlillər aparmaq və təkliflər hazırlamaq".

# «MƏDƏNİYYƏT» VƏ «İQTİSADİYYAT» ANLAYIŞLARININ İKİ ÖLÇÜSÜ

- "Kreativ industriya" anlayışını dərk etmək üçün onun standart iqtisadi qavranılmasından kənara çəkilməliyik (iqtisadi nəzəriyyədə istehsalat faktoru qismində təsvir edilməyən "orijinallıq və yenilikçilik" amilləri nəzərə alınmalıdır).
- **«Creative industries» (kreativ industriya)**

  **«Cultural industries» (mədəni industriya)**

  **«Yaradıcı industriya» ?**

  **Konseptlərin fərqlənmə sərhədi**

- UNESCO VƏ ÜƏMT.
- Müasir «artım və innovasiya» modellərində «mədəni industriya» «kreativ industriya» anlayışına daxil edilir.

- «Yaradıcılıq» (xarakteri) nə deməkdir?
- Əqli mülkiyyət (müəlliflik hüququ) mövqeyindən qorunan obyektlərdir [elm, ədəbiyyat və incəsənət əsərləri, o cümlədən software, ifalar, ixtiralar, faydalı modellər, sənaye nümunələri, seleksiya nailiyyətləri, inteqral sxem topologiyaları];
- Yaradıcı əməyin deyil, əqli fəaliyyətin məhsullarıdır, bunlardan:

- fonoqram istehsalçısı,
- yayım və kabel yayımı təşkilatları,
- məlumat bazasının istehsalçısı (sui generis),
- istehsal sirlərinin sahibi (nou-hau),
- əmtəə və xidmət nişanlarına hüquq sahibi,
- əmtəənin mənşə yerinin adının hüquq sahibi, həmçinin coğrafi göstərici;
- kommersiya sirlərini istifadə edən hüquqi şəxslər.

# «YARADICILIQ» - MÜƏLLİFLİK HÜQUQUNA DAXİL OLAN OBYEKTLƏRİN MEYARIDIR

**Yaradıcılıq və şəxsi (mənəvi) hüquqlar**.

## Nəticə:

1. Mədəniyyət ilə bağlı industriyalara (Cultural industries) yanaşma bilavasitə müəlliflik və əqli mülkiyyət hüquqları ilə qorunmanın mahiyyətindən irəli gəlir.

2. Bu obyektlər “kreativ industriyaya” daxildir.

- “Yaradıcılıq” - “**orijinal** olmaq” deməkdir, «**orijinal**» isə mütləq **yenidir**.
- Orijinal olmadan “yenilik” əlaməti olan obyektlər (məsələn, sənaye mülkiyyəti obyektləri).
- Bu obyektlər də «kreativ industriyaya» daxil edilir.
- Bir sıra obyektlərin mədəni istehsalını digər istehsaldan ayırmaq mümkün deyil.
- Bu obyektlər də «kreativ industriyaya» daxil edilir.

## NƏTİCƏ:

**«Kreativ industriya» «yeniliyi» yaradan, bazarda olmayan məhsulu (xidmət) göstərən təşkilatlardır.**

# “KREATİV İNDUSTRİYA”NIN TƏRİFLƏRİ

- **Konseptual tərif əsasında kreativ iqtisadiyyat kreativliyin daşıyıcılarını və onların fəaliyyəti nəticəsində yeni formaları (innovasiyaları) nəzərdə tutur.**

- **Operasional tərif əsasında kreativ iqtisadiyyat – yaradıcılıq fəaliyyəti ilə bağlı məhsul və xidmətləri yayan, istehsal və istehlak edən milli və beynəlxalq iqtisadiyyatın müvafiq sektorudur** (Kreativ iqtisadiyyatın tərkibinə ETTK, software, kinobiznes, kitab ticarəti, media, musiqi və artbiznes, video-oyun, reklam və dizayn və s. məhsul və xidmətləri bazarları daxil edilir).

# KREATİV İNDUSTRİYALARIN VƏ KREATİV İQTİSADİYYATIN YARANMA SXEMİ



# KREATİV İNDUSTRİYANIN TƏRKİBİ



# AZƏRBAYCANIN KREATİV İNDUSTRİYASININ, O CÜMLƏDƏN MÜƏLLİFLİK HÜQUQUNA ƏSASLANAN SAHƏLƏRİN ÜDM-DƏ PAYI

